Tamara Atakişiyeva

# AZƏRBAYCAN MEMUAR ƏDƏBİYYATINDA KLASSİK EPİSTEMOLOJİ XÜSUSİYYƏTLƏR

(Baninin “Qafqaz günləri” əsəri əsasında)

Azərbaycan memuar ədəbiyyatı XI əsrdən başlayaraq dahi klassiklərimizin əsərlərində formalaşaraq və XX əsrdə müstəqil bir janr olaraq bizim indiki zamanımıza kimi gəlib çıxmışdır. Azərbaycan ədəbiyyatında memuar janrının mühüm yeri vardır. Yazıçı və şairlərimiz memuar janrını Şərq çalarları ilə zənginləşdirmiş, memuarları hətta elmin digər sahələrinə belə töhfə verəcək bir fəaliyyət növünə çevirmişdir. Memuar Azərbaycan ədəbiyyatında bədii özünəməxsusluğu ilə seçilən janrdır.Xatirə yaradıcılığın parlaq nümunələrindən biri  Baninin “Qafqaz günləri”dir və bu məqalədə həmin əsərdəki klassik epistemoloji xüsusiyyətlər olaraq tənqid, fundamentalizm, subyektivlik  kimi məsələlərə nəzər yetiriləcəkdir. Əsərlərdə tənqid epistemoloji xüsusiyyət olaraq yazıçının illüziya və reallıq, fikir və bilik arasındakı fərqə münasibəti kimi nəzərdən keçirilir. Bu xüsusiyyətə Baninin “Qafqaz günləri” əsərindəki fikirləri ilə real vəziyyətin uyğun gəlib-gəlməməsini və bununla əlaqədar olaraq yazıçının özü ilə mücadilə etməsini, gərgin və çox vaxt əbəs daxili axtarışları nümunə ola bilər. Əsərin sadə, səmimi dildə yazılması və xatirə boyunca müəllifin ətrafı, mühiti, qohumlarını hətta özünü belə tənqid etməsi klassik epistemoloji xüsusiyyətin parlaq nümunəsidir. Yazıçının Ramazan bayramı ilə bağlı xatirələri daha maraqlıdır: “ Öz payıma mən, Allahın xoşuna gəlmək üçün deyil, onu özümə borclu salmaq üçün oruc tuturdum. Ürəyimdə bir arzu tutur və güman edirdim ki, dinə xidmətimə görə Allah arzumu yerinə yetirəcək.”[1,15-16] Bu nümunədən göründüyü kimi Banin özünə o zamanlar üçün dini fanatizmin daha yüksək olduğu vaxtda tənqidi belə unutmur. Ətraf mühitin, insanların cəhaləti tənqidi bu əsərdə daha aydın verilib. Bu xüsusiyyət Məhərrəmlik mərasimi ilə bağlı hissədə daha gözəçarpandır. Bu kimi günlərdə Ümmülbanu bacıları ilə birgə əllərində gülab qabı tutub qadınların uzatmış əllərinə su çiləmək vəzifəsi tapşırılmışdı: “Bacılarımla məni belə matəm mərasimlərində hər şeydən çox yalançı ağlaşma maraqlandırırdı. Doğrusu, bu məclislərdə əylənirdik.”[1,18]“Qafqaz günləri” ndə yazıçı bir çox ictimai məsələlərə toxunub.Onun  çoxarvadlılığın xeyirxahlıq kimi qeyd etməsi  ironiyadan bir texnika kimi bacarıqla istifadə etmə bacarığını göstərir . Mühitin, dinin təsirindən dəyişikliyə məruz qalan insanlar özləri də bilmədən bu cür yaşayış tərzinə aşiq olmuşdular, və bu cür münasibətdən qurtulub Avropaya baxan şəxslərə nifrətlə baxırdılar. Banin belə insanları nənəsinin timsalında aydın vermişdir: “Bizimlə nənəmiz arasındakı uçurum getdikcə dərinləşirdi”.[1,19] Müəllifin qeyd etdiyinə görə, nənənin övladlarının, nəvələrinin həyatı “çox  səhv buraxılacaq ömür yolu” sayılırdı.

Fundamentalizm və ya normatizm – bu cür xüsusiyyət, demək olar, memuaristlərin əksəriyyətinin yaradıcılığında izlənilir. Bu yanaşmanın vəzifəsi memuar əsərlərdə xatirənin hansı fundament əsasında yazılmasıdır. Bir çox xatirə əsərlərdə baza fərqli ola bilər. Məsələn, Həmidə Məmmədquluzadənin xatirə yazma səbəbi və özülü Cəlil Məmmədquluzadədir. Belə ki, yazıçının “Xatirələrim” əsərini oxusaq, əmin ola bilərik ki, böyük mütəfəkkir haqqında məlumat ətraflı şəkildə verilmişdir və yaxud, Ömər Faiq Nemanzadənin “Şamaxı” xatirəsi adı çəkilən şəhərlə, Yusif Vəzir Çəmənzəminlinin “Həyatımın 20 ili” müəllifin müəyyən yaş dövründən yazması və s, əslində əsas rolunda çıxış etmişdir. Bir çox yazıçılar da vardır ki, bu xüsusiyyətin əsas göstəricisi – xatirə əsərinin başlıca mətn yaradan amili kimi müəlliflərin həyat təcrübəsinin əsərdə mərkəzi yer tutmasını özül kimi seçmişdir. Baninin “Qafqaz günləri”ni buna nümunə kimi göstərmək olar, belə ki, əsər yazıçının həyat yolu və təcrübəsindən ibarətdir və belə qənaətə gəlmək olar ki, Banin əsər üçün təməli məhz özünün həyatını seçmişdir: “Beləliklə, hər küncdə, hər cığırda dostlarım vardı; burada bir armud ağacı, orada bir pilləkən, bir sarmaşıq, bir gül kolu, bir hovuz və s. Özüm seçdiyim bu dostlarımdan razı idim.”[1,26] Xatirə hissəsindən göründüyü kimi burada əsas məsələ yazıçı və onun ətrafa münasibətidir. Ümumiyyətlə, klassik epistemologiyanın bir növü olaraq fundamentalizm hər yazıçı üçün əsas olan normanı müəyyənləşdirir.

Subyektin mərkəzləşdirilməsi – əsərdə müəllifin baş qəhrəman olaraq özünün bir subyekt kimi təhlil olunmasından, onun düşüncə, qavrayış və münasibətinin ifadə edilməsindən   ibarətdir. Azərbaycan ədəbiyyatında  memuar və avtobioqrafiya janrının bu xüsusiyyəti tipoloji, bu janra aid əksər əsərlərdə rast gəlinən tipoloji özünəməxsusluğu hesab oluna bilər. Baninin “Qafqaz günləri” əsərində də müəllifin bir subyekt olaraq ətraf aləmi dərk etməsi və ona əsasən qərarlar çıxarması nəzərə çarpır. Bu məsələ daha çox atasının evliliyi ilə bağlı hissədə sezilir. Yazıçının qeyd etdiyinə görə onların ailəsi neft hesabına varlanandan sonra şirkət sahibi kimi atası Avropaya səfərləri çoxalır. Təbii olaraq, orada gördüyü “mədəni” avropalı qadınlarını azərbaycanlı xanımlarla müqayisə edir və həyat yoldaşının birinci qrup xanımlar kimi olmasını istəyir. Banin bütün bunların mərkəzində olan bir insan kimi atasının həyatını müşahidə edir və münasibət bildirir. Əsərin başqa maraqlı məqamı balaca Ümmulbanunun kənddə tətilini keçirdiyi zaman ətraf aləmi özünəməxsus şəkildə qavraması idi. Belə ki, hər cansız obyekti; daşı, çubuğu, quyunu, ağacı özünə dost bilən Ümmulbanu onları canlı sayırdı. Buradan belə bir qənaətə gəlmək olar ki, klassik epistemologiyanın subyektin mərkəzləşdirilməsi xüsusiyyəti Baninin şəxsiyyəti əsasında daha aydın hiss olunur. Ümumiyyətlə, Ümmulbanu Banin olana kimi öz həqiqət, bilik və müstəqilliyini formalaşdıraraq bir həyat təcrübəsi keçmişdir. Memuar əsərdə də göründüyü kimi, müəllifin heç bir ailə üzvü və ya qohumuna xüsusi məhəbbətlə yanaşdığı olmayıb, yalnız laqeydlik olub və bu da ona görə baş verib ki, ailədəki hər fərd şəxsi maraqlarına görə öz aralarında ədavət yaşayıb. Burada yazıçının aşkar etdiyi həqiqət ortaya çıxır: “Adam özünə dostu neçə-neçə tanış arasında seçməli olur; ona görə də kiçik bir dəstədən, ailədən yaxşı adam seçmək çox çətin məsələdir.” [1,19] Baninin həqiqəti hamının bildiyi və kimdənsə asılı olan həqiqət deyildi, onun doğrusu dövrünün qoyduğu şərtlər əsasında çıxan məsələlər idi. Müəllif həqiqətdən doğan bilik nəticəsində müstəqil fərd oldu və onu bu yolu “Qafqaz günləri” xatirə əsərinin davamı sayılan “Paris günləri”ndə daha aydın hiss olunur.

“Qadınların tanıma yolları” kitabında qeyd olunduğu kimi bəzi cəmiyyətlərdə, xüsusilə, patriarxal cəmiyyətdə epistemologiyanın bir aspekti kimi  qadın və qız uşaqlarına  “səssizlik” aşılanırdı. Bunun nəticəsi olaraq, qız uşaqları dünyaya gözlərini açandan sonra səbəb və nəticəsi nə olursa olsun heç zaman səsini çıxarmamalı idi. Və bu da təbii olaraq, qadınların fərd kimi yetişməsinə mane olurdu. Belə cəmiyyətdə, qadınlar yalnız kişilərdən asılı idi, sözün əsl mənasında ikincilərin “kölgəsi” hesab olunurdular. Banin belə məqamı əsərdə işıqlandırıb: “Ər arvadın ağasıdır və əsas işi uşaq doğuzdurmaq idi. Arvad ərini az görür, ərinin o biri arvaları, yəni öz günüləri ilə yoldaşlıq edir, onlarla birgə çalışır, uşaqlarını böyüdürdü.” [1,21]

Belenki və başqalarının müəllifi olduqları kitabdakı müşahidələrə görə, qadının özünü tanıma prosesində ikinci mərhələ “qəbul olunmuş biliklər”dir. Bu o anlama gətirib çıxarır ki, qızlara uşaqlıqdan bir bilik toplusu ötürülür və onlardan sadəcə olaraq

"qaydalara riayət etmək" tələb edilir, hansı ki, bu məsələlər onlar üçün həyati vəzifə və borclarına çevrilmişdir. Qadın yemək bişirməlidir, qadın paltar yumalıdır, qadın uşağa baxmalıdır, qadın evləri yığışdırmalıdır və s kimi müəmmalar əsasən müsəlman cəmiyyətində baş alıb gedir. Və təbii ki, Banin də bu məsələyə öz fikrini bildirmişdir. O xatirədə qeyd edir: "Arvadların qurbağalı hovuzun yanındakı son məclisində nənəmin Fəridə adlı bir qızdan danışdığı yadınıza düşürmü? Həmin qızın on altı yaşı vardı, ağıllı idi, altmış yaşlı kişiyə getmək istəmirdi. Söhbətdən az sonra qız tələbkar atasının təkidi ilə təslim oldu (elə belə də olmalı idi) və həmin kişiyə getməyə razılıq verdi."[1,51] Bu hissədən göründüyü kimi, yazıçı bir şərq qadınının bir kişi tərəfindən deyilən sözə istəyinə qarşı olsa da əməl etməsini aydın vermişdir.

"Qadınların tanıma yolları" kitabında növbəti etap olaraq "subyektiv fikir: daxili səsdir". Bu mərhələ Baninin şəxsiyyətində hiss olunur. Əsər boyu din və mühitindən qadınlar üçün doğan həyat şərtləri müəllifin sarkazm ilə qeyd etməsi onun bu reallıqla barışmamasında əks etdirir və hələ uşaqlıqdan həyatın belə tərəflərini qəbul etməyərək özünəməxsus yolla ifadə edir: " Gözəl Fəridə qadın məclisi üçün ayrılmış otağın ortasındakı stulda oturmuşdu. Adətə görə o, yerindən tərpənməməli və danışmamalı idi. Yazıq qız camaat kimi əylənə bilmirdi, yəqin darıxırdı, ona heç fikir verən də yox idi. Hər halda mən onun yerinə olsaydım, darıxardım. Bir sözlə hamı keyfində idi, vay gəlinin halına."[1,52] Bu nümunə Banin şəxsiyyətinin psixoloji xüsusiyyətini mərhələlərlə inkişaf etdiyini göstərir, lakin Fəridə üçün deyil. On altı yaşlı qız birinci və ikinci mərhələdə qalaraq üçüncü mərhələyə Qafqazda inqilab baş verəndən sonra keçmişdir. Bu da özünü hadisələr zamanı çarşabını və ərini atıb öz yaşıdı ilə ailə qurmasında özünü göstərdi.

Növbəti mərhələ olaraq "prosessual bilik" nəzərdə tutulur, lakin bu epistemoloji xüsusiyyət "Qafqaz günləri" xarakterlərinin şəxsiyyətində əks olunmur. Bu mərhələdə olan qadınlar artıq öz sözünü deyir, ayaqları üstə durmağı bacarır. Azərbaycan qadını bu addımı atmaq üçün hələ uzun yol keçəcəkdir.

Ümumiyyətlə, Baninin "Qafqaz günləri"ni epistemoloji cəhətdən təhlil etmək yazıçının kiminsə deyil, öz nöqteyi-nəzərindən obyektlərə, hadisələrə münasibətinin aşkarlanmasında kömək edir. Müəllif önə çəkdiyi hadisələri subyektiv təsvir edir, onların öz baxışına, mövqeyinə uyğun dəyərləndirir. Dinin cəhaləti və şərq adətlərinin tüğyan etdiyi zamanda azərbaycanlı qadınının həyatını önə çıxarır.

Ədəbiyyat

1. Banin. "Qafqaz günləri". Bakı. "Xan" nəşriyyatı. 2017
2. Belenky M.F, Clinchy B.M, Goldberger N.R, Tarule J.M " Women's way of knowing" 1986.
3. https://ru.wikipedia.org/wiki/Эпистемология
4. http://www.sjani.ge/sjani-19/და და მ ოვ ა %20მ ა ფა ქ .pdf Epistemological aspects of life writing.

Açar sözlər: memuar, Banin, epistemologiya, analiz
Key words: memoir, Banine, epistemology, analysis
Ключевые слова: мемуар, Банин, эпистемология, анализ

Classical epistemological apects of Azerbaijan memoir literature.
(on the base of " Days in Caucasus" by Banine)

Summary

The article is devoted to the memoir work "Days in Caucasus" by Banine and its epistemological characteristics. The above mentioned work is a creation where the writer's approach is shown towards the life affected by religion and oriental traditions. This work is analyzed through Banine's point of view to reveal classical epistemological aspects like criticism, fundamentalism, and centralization of subject. During the analysis features like silence, received knowledge, subjective knowledge, procedural knowledge of women personalities of the work will be uncovered.

Классические эпистемологическиеаспекты азербайджанской мемуарной литературы
(на основе «Кавказкие Дни» Банина)

Резюме

Статья посвящена мемуарной работе Банин «Кавказкие Дни» и ее эпистемологической характеристике. Вышеупомянутая работа является творением, где авторский подход показан к жизни, затронутой религией и восточными традициями. Эта работа анализируется с точки зрения Банина, чтобы выявить классические эпистемологические аспекты, такие как критика, фундаментализм и централизация субъекта. В ходе анализа будут выявлены такие особенности, как молчание, полученные знания, субъективные знания, процедурные знания женщин о работе.